

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

# ŞƏRQ qapısı

**Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti***

Sayı: 154 (21.815)

*16 avqust 2017-ci il, çərşənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Qaraxanbəyliyə yeni görkəm verilir

### *Bu yaşayış məntəqəsinin yolu yenidən qurulur, kənddə 3 obyekt inşa olunur*

Naxçıvan şəhərinin Bulqan və Qaraçuq kəndlərində kompleks quruculuq tədbirləri həyata keçirilərək həmin yaşayış məntəqələri müasirliyə qovuşub. Hazırda belə tədbirlər Qaraxanbəyli kəndində aparılır. Bu gün bu yaşayış məntəqəsi əsl tikinti meydançasını xatırladır. Kəndin girəcəyindən başlayaraq Qaraçuğa qədər gedən yol genişləndirilir. Bu ərazidə olan həyət evlərinə hasarlar çəkilir. Yolda torpaqbərkitmə işləri görülür.

Qaraxanbəylidə həyata keçirilən kompleks quruculuq tədbirlərindən biri kənd məktəbi üçün inşa olunan yeni binadır. Binanın layihəsində kəndin gələcək perspektivi nəzərə alınıb. Təhsilin səviyyəsini yüksəltmək məqsədilə inşa edilən yeni bina 414 şagird yerlik olmaqla, 3 mərtəbədən ibarətdir. Müəllim və şagirdlərin ixtiyarına 23 sinif otağı, hərbi kabinə, kitabxana, fizika, kimya, biologiya laboratoriyaları, idman zalı veriləcək. Onlar həm də kompüter və elektron lövhəli siniflərdən istifadə edəcəklər. Bunun üçün 2 kompüter otağı və 3 elektron lövhəli sinif nəzərdə tutulub. Məktəb binası fərdi qazanxana sistemi ilə qızdırılacaq. Tikintiyə kifayət qədər texnika və işçi qüvvəsi cəlb edildiyindən inşaat işləri sürətlə aparılır. Bütün mərtəbələrdə əsas hörgü işləri başa çatdırılıb. Hazırda inşaatçılar binadaxili tikinti işləri ilə məşğuldurlar. Məktəbin ərazisi abadlaşdırılacaq, gülkarlıqlar salınacaq.









Digər bir obyekt kənddə fəaliyyət göstərən qurumların birgə işini təşkil etmək üçün inşa olunan kənd mərkəzidir. İnşaatçılar qısa müddət ərzində 2 mərtəbədən ibarət olan, müasirtipli layihə əsasında inşa edilən binada bir çox işləri başa çatdırıblar. Mərkəzdə inzibati ərazi dairəsi üzrə nümayəndəlik, bələdiyyə, Yeni Azərbaycan Partiyası ərazi ilk təşkilatı, kitabxana, polis sahə və baytarlıq məntəqələri fəaliyyət göstərəcək. Həmçinin kənddə rabitə evi və poçt bölməsi də yaradılacaqdır. Burada abunəçilərə yüksək səviyyədə telefon, videotelefon, İP televiziya, genişzolaqlı internet və digər elektron xidmətlər təklif olunacaqdır.

Kənd mərkəzinin binasında səhiyyə məntəqəsi üçün də otaqlar ayrılacaq. Bu isə qaraxanbəylilərə göstəriləcək səhiyyə xidmətinin səviyyəsini yüksəldəcək.

Kənd sakinləri yaşayış məntəqəsində inşa olunan xidmət mərkəzini onlara göstərilən növbəti dövlət qayğısı kimi dəyərləndirirlər. Burada sənaye malları mağazası, ət satışı yeri və müxtəlif xidmət sahələri fəaliyyət göstərəcək.

Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Naxçıvan Şəhər İdarəsinin inşaatçıları hər 3 obyektdə gördükləri işin keyfiyyətinə ciddi diqqət yetirirlər.

**✍ Muxtar MƏMMƏDOV**

## Əhalinin sosial müdafiəsi diqqət mərkəzindədir

İyul ayında muxtar respublikada işaxtaran və işsiz vətəndaşların münasib işlə təmin olunması məqsədilə keçirilən aktiv məşğulluq tədbirləri davam etdirilmiş, 285 nəfər məşğulluq xidməti orqanlarında qeydiyyatda olan vakant iş yerlərinə, 13 nəfər müvafiq peşə kurslarına göndərilmiş, 1 nəfər isə kəndlərdə xidmət mərkəzlərində müvafiq işlə təmin olunmuşdur. İşlə təmin olunanlardan 11-i ünvanlı sosial yardımla bağlı müraciət edən, 5-i isə məhdud fiziki imkanlı şəxslər olmuşdur. Naxçıvan Regional Peşə Tədris Mərkəzində xalçaçı peşəsi üzrə təşkil olunan kursu 13 nəfər bitirmişdir. Əməyin mühafizəsi tədbirlərinə də diqqət artırılmış, 49 obyektdə nəzarət tədbirləri görülmüşdür.

Muxtar respublikada sağlamlıq imkanları məhdud uşaqların cəmiyyətə və təhsilə inteqrasiyası diqqət mərkəzində saxlanılır. Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində bu kateqoriyadan olan uşaqların müasir informasiya texnologiyalarından istifadə sahəsində biliklərinin artırılması üzrə məşğələlərin təşkili, müxtəlif sosial xidmətlərin göstərilməsi davam etdirilmişdir. Reabilitasiya təlimlərinə, ümumilikdə, 116 uşaq cəlb olunmuşdur. Tədrisə cəlb olunan hərəkət və eşitmə qabiliyyəti məhdud uşaqlar üçün distant dərslərin keçilməsi davam etdirilmişdir. Həmçinin yay tətili günlərində sağlamlıq imkanları məhdud, valideyn himayəsindən məhrum olmuş, həmçinin aztəminatlı və şəhid ailələri uşaqlarının Naxçıvan şəhərində olan muzeylərə, tarixi-memarlıq abidələrinə ekskursiyaları təşkil olunmuş, muxtar respublikanın ümumtəhsil müəssisələrində təhsil alan aztəminatlı ailələrin uşaqları Ağbulaq İstirahət Mərkəzində olmuş, Naxçıvan Dövlət Kukla Teatrında isə tamaşaya baxmışlar.

Bu dövrdə tənha yaşayan və başqasının yardımına ehtiyacı olan 228 ahıl və fiziki imkanları məhdud şəxsə evlərində, həmçinin 10 nəfərə Ahıllar evində stasionar sosial xidmət göstərilmiş, Əlillərin Bərpa Mərkəzində sağlamlıq imkanları məhdud 16 şəxsin, Uşaq Bərpa Mərkəzində bu kateqoriyadan olan 8 uşağın müalicəsi təşkil edilmiş, 121 nəfərə isə sanatoriya və pansionatlara göndəriş verilmiş, Ahıllar evinin sakinləri təbiət gəzintilərinə aparılmışdır.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

*Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondu 2017-ci ilin iyul ayı ərzində əmək pensiyalarının maliyyələşdirilməsini vaxtından əvvəl başa çatdırmışdır.*

## İyul ayında pensiyalar vaxtında ödənilib

"Əmək pensiyaları haqqında" Azərbaycan Respublikası Qanununa əsasən pensiya hüququ yaranmış 87 vətəndaşa əmək pensiyası təyin olunmuşdur. Yeni təyin edilən pensiyaçılardan 27-si yaşa, 28-i əlilliyə, 32-si isə ailə başçısını itirməyə görə əmək pensiyasına çıxmışlar. Fond və onun yerli orqanları tərəfindən sığorta-pensiya qanunvericiliyi sahəsində təbliğat və maarifləndirmə işləri davam etdirilmişdir.

***Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun mətbuat xidməti***

## Naxçıvan Biznes Mərkəzində ikigünlük seminarlara başlanılıb

***Avqustun 15-də Naxçıvan Biznes Mərkəzində xidmət sahələri üzrə peşəkar kadrların hazırlanması məqsədilə seminar keçirilib.***



Seminarda Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin şöbə müdiri Mircavid Tağızadə "Xidmət sahələrində çalışan işçilərin xidmət səviyyəsinin yüksəldilməsinin zəruriliyi", "Təbriz Mehmanxanası" Məhdud Məsuliyyətli Cəmiyyətinin direktoru Bəkir Baş "Beynəlxalq təcrübədə xidmət sahələrində çalışan işçilərin xidmət səviyyəsi və normaları", "Naxçıvan" Universiteti Turizm İnformasiya Mərkəzinin rəhbəri Şahnaz Məmmədova "Turizmin inkişafında xidmət sektorlarının rolu" mövzularında çıxışlar ediblər.

Çıxışlarda bildirilib ki, sahibkarlığın inkişafı üçün muxtar respublikada münbit şərait təmin edilib. Özəl sektorun inkişafına göstərilən hərtərəfli dövlət dəstəyinin nəticəsində muxtar respublikada çoxsaylı sahibkarlıq subyektlərinin yaradılmasına nail olunub. Özəl sektorun inkişafı eyni zamanda xidmət sahələri üzrə peşəkar kadrların hazırlanmasını zəruri edir. Qeyd olunub ki, bu gün muxtar respublikada turizmin inkişaf etdirilməsi xidmət sahələrinin rolunu daha da artırıb. Çünki xidmət sahələrində çalışan işçilər turistlərlə birbaşa təmasda olduqlarından onların peşəkarlıq səviyyəsinin yüksəldilməsi də əsas məsələlərdəndir. Buna görə də xidmət sahələrində çalışan işçilərin öz peşəsini daha dərindən bilməsi, regiona gələn turistlərin tələbatlarına uyğun olaraq servislərin təşkili tələb edilir. Servislər zamanı göstəriləcək operativlik və peşəkarlıq bu sektorun uğuruna zəmin yaradır.

Sonra tədbir iştirakçılarının sualları cavablandırılıb.

Qeyd edək ki, ikigünlük seminar bu gün başa çatacaq. Seminarda iştirakçılar "Xidmət sektorunda peşəkarlığın artırılması" və "Xidmət sahələrində çalışan işçilər üçün tələblər" mövzularında məruzələr dinləyəcəklər.

**✍ Səbuhi HÜSEYNOV**

## Soyuducu anbarlara məhsul qəbul edilir

Dövlət tərəfindən aqrar sahənin inkişafı üçün müasir infrastrukturların yaradılması, fermerlərə müxtəlif güzəştlərin edilməsi, aqrolizinq xidmətinin genişləndirilməsi bu vacib sahənin inkişafına müsbət təsir göstərməkdədir. Bunu Şərur rayonunun timsalında da görmək olar. Bölgədə adıçəkilən istiqamətdə həyata keçirilən tədbirlərdən biri soyuducu anbarların yaradılmasıdır.



Uzunmüddətli və güzəştli şərtlərlə verilən kreditlər, yaxud sahibkarın şəxsi vəsaiti hesabına son illər rayonda ümumi tutumu 3 min ton olan 11 müasirtipli soyuducu anbar tikilib. Artıq bu anbarlara mövsümün meyvə və tərəvəz məhsulları qəbul edilir.

Danyeri kəndində Ramiz Həsənovun 300, Qaraburc kəndində Qəşəm Kərimova məxsus 110, Yusif Quliyevin Şərur şəhərində tikdirdiyi 440, Cəlilkənddə Yaqub Tağıyevə məxsus 650, Əmir Əsədovun Qarxun kəndindəki 360 tonluq məhsul saxlamaq gücündə olan soyuducu anbarlara məhsul təhvil verərkən torpaq mülkiyyətçiləri heç bir maneə ilə rastlaşmırlar.

Sahibkar Yaqub Tağıyev deyir ki, tələbatdan artıq istehsal olunan kənd təsərrüfatı məhsullarını qəbul etmək və saxlamaq üçün anbarlarımızda hərtərəfli şərait vardır. Soyuducu anbar sahibləri tədarükdən əvvəl meyvə-tərəvəz məhsullarının istehsalı ilə məşğul olan fermerlərlə və fərdi təsərrüfat sahibləri ilə əlaqə saxlayır, onların sifarişlərini qeyd edir və bu sifarişlər əsasında yerlər müəyyənləşdirirlər. Məhsul sahibkarlardan dəyəri yerində ödənilməklə, yaxud müqavilə əsasında saxlama haqqı alınmaqla anbarlara yığılır. Soyuducu anbarların işə salınması yerli meyvə və tərəvəzlərin ilboyu bazara çıxarılmasına imkan verir. Havanın temperaturuna gündəlik nəzarət olunur.

Şərur Rayon İcra Hakimiyyətindən aldığımız məlumata görə, hələlik soyuducu anbarlarda 1350 ton məhsul tədarük olunub ki, bunun da çoxu kartofdur. Anbarlara məhsul qəbulu davam edir.

**Elman MƏMMƏDOV**

*Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, Əməkdar elm xadimi, professor Həsən Əliyevin 110 illik yubileyinin keçirilməsi ilə bağlı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2017-ci il 7 fevral tarixli Sərəncamında deyilir:* ***"Cəfakeş alim, təbiət vurğunu, təbiətin mühafizəsi üçün geniş elmi fəaliyyətlə məşğul olan Həsən Əliyev bütün ömrünü Azərbaycan elminin inkişafına həsr etmişdir. Onun elmi yaradıcılığının bünövrəsi təbiətin mühafizəsi, təbii ehtiyatlardan səmərəli istifadə problemləri olmuşdur".***



*Həsən Əliyev – 110*

# Torpağa, Vətənə bağlı ömür

Həsən Əliyev uşaqlıq və gənclik illərində çox çətin sınaqlarla üz-üzə qalıb. O, sovet hakimiyyətinin ilk illərində taleyin sərt sınaqları ilə üzləşsə də, fitri istedadı və təhsilə olan sonsuz marağı sayəsində axşam məktəbində təhsil alır, mətbuatda zamanın nəbzini tutan publisistik məqalələrlə çıxış edirdi. Həsən Əliyev 1924-1930-cu illərdə Naxçıvan şəhərindəki kənd təsərrüfatı texnikumunu bitirdikdən sonra ali təhsil alaraq aspiranturaya daxil olur. Azərbaycan Milli Elmlər Akademiyasının Torpaqşünaslıq bölməsində elmi işçi və elmi katib işləyir. Elə o vaxtdan xam torpaqların tədqiqinə başlayır. Apardığı tədqiqatların nəticəsi kimi "Pirsaat düzünün torpaqları və ondan istifadə yolları" adlı ilk monoqrafiyası 1940-cı ildə kitab şəklində işıq üzü görür.

1941-ci ildə Böyük Vətən müharibəsi başlananda Həsən Əliyev ordu sıralarında zabit kimi xidmət edir. Cəfakeş alim alman faşizminə qarşı döyüşlərdə ağır yaralandıqdan sonra arxa cəbhəyə qayıdır və səngəri elm cəbhəsi ilə əvəz edir. O, 1944-1949-cu illərdə Azərbaycan Milli Elmlər Akademiyası Torpaqşünaslıq və Aqrokimya İnstitutunun elmi işlər üzrə direktor müavini, eyni zamanda Azərbaycan Dövlət Pedaqoji İnstitutunda baş müəllim, 1949-1952-ci illərdə Azərbaycan Milli Elmlər Akademiyası Botanika İnstitutunun direktoru kimi səmərəli fəaliyyət göstərir. Həsən Əliyev həm də coğrafiya üzrə bir sıra elmi şuraların sədri və üzvü olub. Onun yüksəkixtisaslı kadrların hazırlanmasında böyük xidmətləri var.

Azərbaycan Respublikası Təbiəti Mühafizə Komitəsinin yaradıcısı və cəmiyyətin sədri, Azərbaycan Coğrafiya Cəmiyyətinin prezidenti, 1975-ci ildən "Azərbaycan təbiəti" məcmuəsinin baş redaktoru olan Həsən Əliyev dünyanın müxtəlif ölkələrində keçirilən beynəlxalq konfranslarda, seminar və simpoziumlarda məruzələrlə çıxış edib. 50 illik elmi fəaliyyətinin bəhrəsi olan 400-ə yaxın elmi əsər yazıb. Monoqrafik əsərləri elm ictimaiyyəti tərəfindən böyük rəğbətlə qarşılanıb. Azərbaycan SSR Ali Sovetinin 10-11-ci çağırışlarda deputatı olub. "Lenin", "Oktyabr inqilabı", "Qırmızı əmək bayrağı", "Qırmızı ulduz", "Birinci dərəcəli Vətən müharibəsi", "Şöhrət" ordenləri, SSRİ Elmlər Akademiyasının Vavilov adına qızıl medalı ilə təltif edilib. Dünya universitetlərinin elmi və mədəniyyət üzrə doktoru, İngiltərə Kraliça Biblioqraflar Cəmiyyətinin həqiqi üzvü olub.

Həsən Əliyevə görə, Azərbaycan təbiəti Azərbaycan torpağı deməkdi. Onun fəaliyyətinin əsasında insanla təbiət arasındakı pozulmuş balansın bərpası dayanırdı. O deyirdi: "İnsanlara təbiətin bir parçası olduqlarını anlatmaq, onlara təbiəti sevdirmək başlıca vəzifəmiz olmalıdır".

Ulu öndər Heydər Əliyev çıxışlarının birində deyirdi: ***"Təbiətin ölkəmizə bəxş etdiyi zəngin sərvətlərə xüsusi qayğı ilə yanaşmaq, belə misilsiz xəzinələri bəşəriyyətin gələcəyi naminə qorumaq üzərimizə düşən başlıca vəzifədir".*** Akademik Həsən Əliyev bu vəzifələrin məsuliyyətini dərindən dərk edir və dəyərləndirirdi. Onun qənaətinə görə, təbiətin bizə bəxş etdiyi ən qiymətli sərvət elə məhz torpaqdır. Ona görə də cəfakeş alim ömrünün yarısını Azərbaycan torpaqlarının öyrənilməsinə, məhv olmaq təhlükəsiylə üz-üzə qalan meşələrin, dağların, çayların xilas edilməsi yollarını axtarmağa sərf elədi. O, torpağı canlı bir varlıq kimi öyrənir, torpaqla insanın ünsiyyətində böyük sosial-ictimai tutum görürdü. Torpağın eroziyasını insanın eroziyasının başlanğıcı kimi qiymətləndirirdi.

Azərbaycan təbiətinin, torpağının və suyunun mühafizəsi sahəsində akademikin xidmətləri əvəzsizdir. "Su dirilikdir, həyatdır", – demişlər. "Susuz təbiət yoxdur və heç bir yaşıllığı təsəvvür etmək də mümkün deyildir. Su da çörək kimi hamıya, hər şeyə lazımdır. Hətta isbat edilmişdir ki, su çörəkdən də vacibdir", – deyən Həsən Əliyev üçün su ən aktual problemlərdən biri olub. O, sudan kənd təsərrüfatında qənaətlə və səmərəli surətdə istifadə etmək, onu çirklənmədən qorumaq kimi problemlərə xüsusi diqqət yetirir, qeyd edirdi ki, yalnız bu yolla suya olan tələbatın ödənilməsini yaxşılaşdırmaq olar.

O, gənc nəslin ekoloji tərbiyəsinə, təbiətin mühafizəsi haqqında biliklərin dərinləşməsinə, təbii komponentlərin təbliğinə böyük əhəmiyyət verirdi. Həsən Əliyevin "Həyəcan təbili" əsəri təbiətin və ətraf mühitin qorunması üçün insanlara ağrılı, həraratlı müraciət çağırışıdır. Üstündən 35 il vaxt ötməsinə baxmayaraq, bu kitab yenə də öz aktuallığını saxlayır. Alim ürəkağrısı ilə yazırdı ki, bir düzənlikdəki münbit torpağın əmələ gəlməsi üçün bəzən min ildən artıq vaxt keçir. Onun yararsız hala düşməsi üçün isə çox əmək və çox vaxt sərf etmək lazım gəlmir. Torpaq da övladlarının, əsrlərlə bəsləyib yedirtdiyi insanların əlindən fəryad edir. Bəs onun dadına çatmaq, onu müalicə etmək lazım deyilmi?!

Azərbaycanın bütün ərazilərində mühüm tədqiqatlar aparan akademik Həsən Əliyev Naxçıvan Muxtar Respublikasının da ekologiyası ilə dərindən maraqlanıb, bu qədim diyarın zəngin təbiətini tədqiq edib, təbiətin qorunması, təbii ehtiyatlardan səmərəli istifadə olunması ilə bağlı təkliflər verib. Sevindirici haldır ki, bu gün görkəmli alimin Naxçıvanın ekoloji mühiti, zəngin təbiətinin qorunması ilə bağlı arzuları reallığa çevrilib. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı sayəsində muxtar respublikamızda sağlam ekoloji mühitin yaradılması həyata keçirilən müxtəlif istiqamətli tədbirlərin tərkib hissəsini təşkil edir. Naxçıvanda yeni yaşıllıq zolaqları, fauna və floramızın qorunması və zənginləşdirilməsi diqqətdə saxlanılır. Bunun nəticəsində bir vaxtlar yaşıl örtük sahəsi ümumi ərazisinin 1 faizini təşkil etməyən muxtar respublikada hazırda 13 faizə qədər ərazi yaşıllıqlara bürünüb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2009-cu il 25 noyabr tarixli Sərəncamı ilə Akademik Həsən Əliyev adına Ordubad Milli Parkının sahəsi Ordubad Milli Parkının, Şahbuz Dövlət Təbiət Qoruğunun, eyni zamanda Culfa, Ordubad rayonlarının inzibati ərazilərində olan dövlət meşə fondu və Şahbuz, Culfa, Ordubad rayonlarının inzibati ərazilərində yerləşən yay otlaqlarının torpaqları hesabına genişləndirilərək Akademik Həsən Əliyev adına Zəngəzur Milli Parkı yaradılıb. Milli Parkın yaradılmasında əsas məqsəd isə ərazidə ayrı-ayrı komponentləri mühafizə etmək, müxtəlif növ heyvanları və ərazi üçün səciyyəvi olan fauna növlərini qoruyub saxlamaq, ekoloji monitorinqi həyata keçirmək, əhalini ekoloji cəhətdən maarifləndirmək, turizm üçün əlverişli şərait yaratmaqdan ibarətdir. Buna görə də ərazidə mövcud olan heyvanat aləminin qorunması və öyrənilməsi daim diqqət mərkəzində saxlanılır və bu işlər mütəmadi xarakter daşıyır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2017-ci il 10 fevral tarixdə imzaladığı Sərəncamla "Akademik Həsən Əliyevin 110 illik yubileyinin Naxçıvan Muxtar Respublikasında keçirilməsinə dair Tədbirlər Planı" təsdiq edilib. Tədbirlər Planına əsasən yubileylə bağlı muxtar respublikada silsilə tədbirlər keçirilir, gənclərin və tələbələrin Akademik Həsən Əliyev adına Zəngəzur Milli Parkına ekskursiyaları təşkil olunur.

Akademikin ömür yolu çox zəngindir və o zəngin ömürdə isə böyük bir Azərbaycan dünyası yaşayır. Həsən Əliyev ana torpağa, ana təbiətə, təbiətin yaratdığı gözəlliklərə, ülviliyə bağlı bir insan idi. Əlbəttə, torpaqdan yaranan insanın torpağa ali hisslər, saf duyğular bəsləməsi təbiidir. Akademik təbiətə bağlı insan olduğundan, ona zərər dəyməsini qətiyyən istəməyib və yaşıllaşdırma işinə böyük rəğbətlə yanaşıb. Təbiətə doğması kimi münasibət göstərən Həsən Əliyev vaxtilə mətbuatda dərc edilən məqalələrində "Meşə həyat mənbəyidir", – deyə yazırdı. Qeyd edirdi ki, meşə sərvətimizdir, meşə varlığımızdır, meşə məişətimizin bir hissəsidir: "Meşəni – təbiətin bu yaşıl kəmərini bir an təsəvvür etməsək, demək, bəşər də yoxdur. Meşələrin mühafizəsi naminə biz əkinəyararlı torpaqları qorumalı və ondan lazımi səviyyədə istifadə etməliyik. Əks-təqdirdə əkin yerlərini genişləndirmək naminə meşələr qırılacaq, təbiət bizdən üz döndərəcək".

Xalq şairi Məmməd Araz yazırdı: "Akademik Həsən Əliyev görkəmli torpaqşünas, coğrafiyaçı, Azərbaycanda ekologiya problemləri haqqında ilk həyəcan təbili çalan vətəndaş, ziyalı və müdrik şəxsiyyətdir. Ürəyi xalqın ürəyi ilə birgə döyünən, həyatı xalqın taleyi ilə sıx bağlı olan şəxslər əbədiyaşardırlar. Həsən Əliyev kimi insanlar olmasaydı, dağlar arxasız, çaylar məcrasız, düzlər çəmənsiz, meşələr kimsəsiz, təbiət yiyəsiz qalardı".

Təbiəti, ilk növbədə, insan qorumalıdır. Görkəmli akademik bu barədə yazırdı: "Bir şeyi yadda saxlayın: Yer kürəsindəki bioloji mühit məhv olan deyil. Onun nizamının pozulması yeni bir mühit yaradıb bu mühiti yaşada bilər. Lakin mühitin dəyişməsi bəşəriyyəti təhlükə qarşısında qoyur. İnsan öz-özünün keşikçisi olmalıdır, hey bir başqa canlı onun hayına çatmayacaq. Bəlkə də, toya, yasa və digər mərasimlərə yubanmaq olar. Təbiətə münasibətdə yubanmaq isə çox yaşamağa yubanmaqdır".

***Böyük təbiətşünas-alimin fikirlərindən yola çıxıb belə bir nümunəni önə çəkmək yerinə düşər ki, hər bir insan ağac əkməli, yaşıllaşdırma işinə həvəs göstərməlidir. Bu yolu tutan Həsən Əliyev kimi görkəmli şəxsiyyətlərin taleyinə, sadəcə, bir qismət yazılır: Torpağa, Vətənə bağlı ömür.***

**Vaqif AĞALAROV**
***Naxçıvan Dövlət Televiziyasının baş redaktoru***

*İstehsal müəssisələri*

# Keyfiyyətli beton məmulatlarından inşaat işlərində geniş istifadə olunur

***Muxtar respublikada aparılan geniş tikinti-quruculuq işləri tikinti materiallarına olan tələbatı artırıb. Əvvəllər bu materiallar xaricdən gətirilirdi. Bu da əlavə xərclərə yol açırdı. Sevindirici haldır ki, indi bu problem aradan qaldırılıb. Belə ki, muxtar respublikada bu sahədə ixtisaslaşmış müəssisələr fəaliyyətə başlayıb və bununla da tələbat daxili imkanlar hesabına ödənilir. Belə müəssisələrdən biri də rəqabətqabiliyyətli, keyfiyyətli məhsullar istehsal edən "Gəmiqaya Beton Məmulatları" Məhdud Məsuliyyətli Cəmiyyətidir. Adıçəkilən müəssisə Babək rayonunun Qoşadizə kəndi yaxınlığında, Naxçıvançayın kənarında fəaliyyət göstərir.***

Ötən günlərdə yolumuzu həmin ünvandan saldıq, istehsal prosesi ilə tanış olduq. Tanışlıq zamanı öyrəndik ki, "Gəmiqaya Beton Məmulatları" Məhdud Məsuliyyətli Cəmiyyəti 2005-ci ildə fəaliyyətə başlayıb. Əvvəllər muxtar respublikamızda aparılan tikinti işləri üçün lazım olan inşaat materialları, beton primitiv üsullarla hazırlanır, quruculuq obyektlərində istifadə olunan kilid daş, dekorativ kərpic və digər beton məmulatları qonşu ölkələrdən gətirilirdi. İndi həmin materiallar bu müəssisədə istehsal edilir. Müəssisədə Türkiyədən alınmış müasir texnoloji avadanlıqlar quraşdırılıb. Burada istehsal gücü saatda 150 ton xammal olan qum-çınqıl karxanası, günlük 100 kubmetr beton istehsal edə biləcək zavod və dekorativ daşlar istehsalı sexi fəaliyyət göstərir. Hazırda muxtar respublikanın inşaat meydançalarında bu müəssisənin məhsullarına böyük üstünlük verilir. Bu da onunla əlaqədardır ki, müəssisədə keyfiyyət amilinə xüsusi diqqət göstərilir.

Son illərdə su-kanalizasiya sistemlərinin yenilənməsi istiqamətində muxtar respublikada həyata keçirilən irimiqyaslı tədbirlər keyfiyyətli beton borulara olan tələbatı da artırıb. Bu məqsədlə müəssisədə yeni layihə həyata keçirilib, beton boru istehsalı sahəsi yaradılıb. 2012-ci ilin avqust ayından fəaliyyətə başlayan sexdə müasir texnoloji avadanlıqlar quraşdırılıb. İstehsal gücü saatda 10 ədəd beton boru və beton daban olan müəssisədə istehsal prosesi avtomatlaşdırılıb, keyfiyyətli məhsul istehsalına nail olunub. Yeni istehsal sahəsində qalınlığı 15, hündürlüyü 60 santimetr, diametri 600-800-1000 millimetr olan beton borular istehsal edilir. Bu beton borular möhkəmliyi və davamlılığı ilə sınaqdan çıxıb.

Betona olan tələbatın artması Naxçıvanda inşaat işlərinin ildənilə genişləndirilməsi ilə əlaqədardır. Ancaq artan tələbatı ödəmək üçün hər bir müəssisəyə daha çox investisiya və yeni layihələr lazım olur. Müəssisə tərəfindən bütün bunlar nəzərə alınaraq Türkiyə Respublikasından istehsal gücü saatda 100 kubmetr olan müasir texnoloji avadanlıqlar alınıb gətirilərək quraşdırılıb. İstehsal prosesi konveyer üsulu ilə təşkil edilib. Beton istehsalı mərhələli şəkildə həyata keçirilir. Belə ki, əvvəlcə beton istehsalı üçün keyfiyyətli qum tədarük edilir. Qumçınqıl karxanasında bir saat ərzində 150 ton qum yuyularaq ələnir və çınqıl 3 növə ayrılır. Sonrakı mərhələdə isə yuyulmuş qum Beton Zavoduna daşınır. Burada texnoloji proseslərə kompüter vasitəsilə nəzarət olunur. Betonun hazırlanması üçün qumun, sementin və suyun həcmi də məhz kompüterlər vasitəsilə müəyyənləşdirilir. Eyni zamanda istehsal prosesinə laboratoriyada qurulmuş kompüterlə nəzarət təmin olunub. Kompüterdə betonun keyfiyyət göstəriciləri barədə məlumat öz əksini tapır. Bu da, son nəticədə, keyfiyyətli beton istehsal edilməsinə, istehsal prosesinin müasir tələblərə uyğun qurulmasına, müəssisənin daha rentabelli işləməsinə şərait yaradır.



Beton məmulatları istehsalı sexində istehsal gücü saatda 35 kvadratmetr kilid daş olan avadanlıqlar quraşdırılıb. Hazırda 2 istehsal xəttinin fəaliyyət göstərdiyi sexdə müxtəlif beton məmulatları – kilid daş, dekorativ kərpic, yağış kanalı, bordür istehsal olunur.

Qeyd edək ki, müəssisənin Şərur rayonunun Qarxun və Ordubad rayonunun Aza kəndləri ərazisində istehsal sahələri fəaliyyət göstərir. Hər birinin sahəsi 6 hektar olan istehsal sahələrinin saatda 100 kubmetr beton istehsal etmək imkanları vardır. Bu müəssisələr yerli əhalinin uzaq məsafələr qət olunmadan, rahat və sərfəli qiymətlərlə beton əldə etməsinə şərait yaradır.

*Bəli, bu gün həm muxtar respublika əhalisi, həm də bütün tikinti obyektləri keyfiyyətli tikinti materialları ilə təmin olunurlar. Bu materialların asan, ucuz və keyfiyyətli əldə olunmasına töhfə verən "Gəmiqaya Beton Məmulatları" Məhdud Məsuliyyətli Cəmiyyətinin kollektivi qazanılan uğurlarla kifayətlənmir, müasir dövrün tələbləri çərçivəsində fəaliyyətini davam etdirir.*

**✍ Nail ƏSGƏROV**

***Azərbaycan folklorundakı uşaq oyunları uşaqların fiziki və əqli inkişafında böyük rol oynamaqla yanaşı, həm də onlara bir çox müsbət keyfiyyətlər, gözəl vərdişlər aşılayır. Uşaq folkloru ayrıca bir istiqamət kimi müxtəlif alimlər tərəfindən toplanmış, bu və ya digər dərəcədə tədqiq və nəşr olunmuşdur.***

*Xalq yaradıcılığı*

## Folklorumuzdakı uşaq oyunlarını yenidən necə təbliğ etməli?




Çox uzaq keçmişi əhatə etməyən zaman kəsiyində sürətli şəkildə elektronlaşma, elektrotexnikanın inkişafı, kompüterin, internetin hər evə ayaq açması, hətta "ciblərdə məskən salması" folklorun bu tərəfinə ciddi zərbə vurdu. Əvvəllər folklorumuzda yer alan düzgülər, sanamalar, deyimlər kimi folklor janrlarıyla zəngin oyunlara maraq üstünlük təşkil edirdisə, təəssüflə etiraf etməliyik ki, bu gün həmin oyunları kompüterlərin, yaxud telefonların yaddaşındakı oyunlar əvəz edib. Xüsusilə də folklorun geniş şəkildə qorunub yaşadıldığı kəndlərdə belə, artıq uşaq oyunları sıradan çıxmaq üzrədir.

Elə buna görə də bu gün folklorşünaslıq elmi mənafeyindən uşaq oyunlarının yenidən tədqiqi və təbliğinə böyük ehtiyac duyulduğunu diqqətə çatdırmaq istədik və belə bir mövzu üzərində iş aparmağa çalışdıq.

Ölkəmizdə uşaq oyunlarının geniş arealda yayıldığı, oynanıldığı, öyrənildiyi yerlərdən biri də Naxçıvandır. Muxtar respublikanın hər bir bölgəsində uşaqların repertuarında folklordan gələn uşaq oyunlarının böyük yeri var idi. Lakin bu gün yuxarıda da qeyd etdiyimiz kimi, bu folklor nümunələrimiz müasir texnologiyanın təsiri altında əzilir. Bəs nə etməli?

Burda bir haşiyə çıxıb qeyd etmək istərdik ki, Naxçıvanda qədim uşaq oyunları ilə yanaşı, sonralar meydana gələrək oynanılan oyunlar da kifayət qədərdir. Bu gün unudulmaqda olan həmin oyunların muxtar respublikanın özündə də regionlara görə seçildiyini müşahidə etmək mümkündür. Naxçıvanda onlarla uşaq oyununun adını qeyd edə bilərik. Bu barədə üççildlik "Naxçıvan folklor antologiyası"nda da bəzi materiallar yer alıb.

Uşaq oyunları tədqiqatçılar tərəfindən hərəkətli xalq oyunları və söz oyunları kimi iki yerə ayrılır. Eyni zamanda hərəkətli xalq oyunlarının özü də əşyalarla və əşyalarsız oynanılan oyunlar deyə iki şəkildə qruplaşdırılıb.

Naxçıvanda yayılmış uşaq oyunları arasında "Evcik-evcik", "Çırtı-çırtı", "Cıdır oyunu", "Dirədöymə", "Papaqaldıqaç", "Xan-vəzir", "Ənzəli", "Bənövşə", "Qəcəmə daş", "Gizlənqaç", "Qodu-qodu", "Tıx-tıx", "Dama-dama", "Ocaq yandı, su qaynadı", "Qazlar-ördəklər", "Gələn-gedən", "Qırqovul", "Əlimi siçan dişlədi", "Fincan-fincan" kimi onlarla oyunun adını çəkə bilərik ki, bunların bir çoxu nəinki uşaqların, hətta vaxtilə bu oyunu oynamış böyüklərin belə, yaddaşından silinib getmək təhlükəsi ilə üz-üzədir.

Düzdür, uşaq oyunlarının araşdırılması sahəsində bu günədək bir çox tədqiqatçılar söz söyləyib, fikir bildiriblər. Belə folklorşünaslardan biri – Vaqif Vəliyev hələ ötən əsrin sonlarında bu mövzuda həyəcan təbili çalaraq yazırdı: "Uşaq oyunlarının şeirlə birləşməsi, heç şübhəsiz ki, oyunda bir qayda yaratmaqla, onda iştirak edənləri məşğul etmiş və oyunun yadda saxlanılmasına kömək etmişdir. Şeirlə olmayan oyun sözləri tez unudulmuş, onları yadda saxlamaq mümkün olmamışdır. Nəzmlə olanlar isə dövrümüzə qədər gəlib çatmamışdır". Göründüyü kimi, hələ ötən əsrin səksəninci illərində bəzi oyunların günümüzə gəlib çatmadığından bəhs olunur. Bu məsələ bu gün daha çox aktualdır, həmin oyunların gələcək nəsillərə də çatmayacaq nümunələri gözümüzün önündəcə silinib gedir.

Bununla bağlı professor Ramazan Qafarlı sistemli, ardıcıl və əhatəli tədqiqatlar aparıb, Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun Folklorşünaslıq şöbəsinin əməkdaşları Elmin İnkişafına Dövlət Dəstəyi Fondu ilə birlikdə "Naxçıvan uşaq folklorundan örnəklər" irihəcmli toplama materialları kitabını nəşrə hazırlayıb. Bu işlər, sadəcə, həmin oyunların öyrənilməsi, tədqiqi üçün əhəmiyyətlidir. Bəs yaşadılması? Bu işin yerinə yetirilməsində kənd və şəhərlərdə fəaliyyət göstərən klublar, mədəniyyət evləri, yaradıcılıq mərkəzləri tərəfindən həyata keçirilməli bir sıra işlər vardır. Həmçinin bağça və məktəblərdə bu işin sistemli və daimi olması üçün bu gün həm tədqiqat müəssisəsi, həm də Folklorşünaslıq şöbəsi kimi qarşımızda böyük vəzifələr durur.

Belə ki, folklor ekspedisiyalarının sistemliliyini artırmalı, hər bir bölgədə oyunların toplanmasını birgünlük toplayıcılıq fəaliyyəti ilə məhdudlaşdırmamalı, bir kənddə bir neçə dəfə olmalı, materialları toplamalı, onların izahlı kataloqunu hazırlamalı, toplu halında nəşr etdirməli və sonrakı mərhələdə tədqiqini həyata keçirməli, ən son olaraq isə təbliğatını aparmaq üçün üsullar, yollar axtarmalıyıq.

Bunun üçün ilk olaraq kütləvi informasiya vasitələrinin gücündən istifadə etmək mümkündür. Mətbuatda müxtəlif məqalələr dərc etmək, xüsusilə televiziyaların uşaqlar üçün nəzərdə tutulmuş verilişlərinin hər buraxılışında bir uşaq oyunu haqqında məlumat vermək, bölgələrdəki bu oyunları əyani şəkildə tamaşaçıya göstərməklə həmin oyunların yenidən uşaqların gündəlik repertuarına daxil edilməsinə nail ola bilərik.

Nəzərə alsaq ki, uşaq yeniliyə meyillidir, bu zaman unudulmaqda olan və bu gün həmin uşağın rast gəlmədiyi, şahidi və iştirakçısı olmadığı oyuna maraq yaranacaq, onu da sınaqdan çıxarmaq istəyəcək. Belə olan halda isə problem kimi qarşımıza qoyduğumuz məsələnin həlli istiqamətində – oyunların yenidən aktiv yaşayış qazanmasına ümid etmək olar.

Təbii ki, yuxarıda qeyd etdiyimiz məqamları da unutmamalıyıq. Belə ki, bağça və məktəblərdə uşaqların həmin folklor oyunları ilə tanışlığı tədris planlarında da özünə yer almalıdır. Bunun üçün isə, geniş mənada, Elmlər Akademiyasının müvafiq institutları ilə Təhsil Nazirliyinin qarşılıqlı və ortaq fəaliyyət xəritəsi hazırlana bilər. Uşaq oyunlarının təbliği istiqamətində qonşu və qardaş Türkiyənin ayrı-ayrı vilayətlərdə festivallar keçirmək təcrübəsini tətbiq etməklə bu oyunların unudulmamasına, yeniyetmə uşaqların yaddaşına yazılmasına və yaşadılmasına nail ola bilərik. Bu cür festivallarda bəzən lap arxaik yaddaşda ilişib qalmış elə oyunlar üzə çıxarmaq olar ki, onlar nəinki öyrənilib, bəlkə də, heç toplanılmayıb da. Bunun üçün isə bu cür oyun festivala kəndlərdəki ağsaqqal və ağbirçək insanları dəvət etmək, onları uşaqların əhatəsində bildikləri oyunları həm danışmağa, həm də oynamağa həvəsləndirmək olar.

Uşaqların yaddaşının güclü və tərtəmiz olduğunu nəzərə alsaq, onların bu zəngin yaddaş tutumundan faydalanmaqla folklorumuzun unudulmaq təhlükəsiylə üz-üzə qalan oyunlarını yenidən bərpa etmək, folklora qayıdışı təmin etməklə həm tədqiqatçılar üçün, həm də uşaqların özü üçün zəngin material toplama şəraiti yaratmaq mümkün ola bilər.

Nəzərə alaq ki, muxtar respublikamızda milli kimliyə, milli kökə, milli mədəniyyətə, milli mətbəxə qayıdış son illərdə sistemli və ardıcıl xarakter alıb. Muxtar respublikamızda qazanılan festival təcrübəsi "Uşaq oyunları" festivalının da öhdəsindən gələ biləcəyimizə əminlik hissi yaradır. Beləcə, milli və mənəvi xəzinəmiz olan folklorumuzun uşaq oyunları şöbəsini də festivallar vasitəsiylə əyləncəli və öyrədici hala gətirmək mümkündür.

Əgər bu gün uşaqlar daha çox "Bənövşə", "Gizlənqaç", "Evcik-evcik", "Ocaq yandı", "Son hərfə görə sözdemə" kimi oyunları oynayırlarsa, niyə də onların oynayacaqları oyunların sırasında festivallar sayəsində mənimsəyəcəyi "Halay gəlmək", "Qayışagirmə", "Qələşəngi oyunu", "Səkkiz daş", "Qəcəmə daş", "Qoşalbənd", "Sapda, supda", "Palazagirmə", "Qırqovul", "Südlü sümük" və digər bu kimi oyunlar olmasın? Bu oyunları yuxarıda bəhs etdiyimiz müxtəlif yollarla kütləviləşdirmək və öyrətmək olar.

Müasir dövrümüzdə uşaq folkloru sahəsində yeganə ardıcıl və sistemli tədqiqatçı olan professor Ramazan Qafarlının da vurğuladığı kimi, "tamaşa, dram ünsürləri uşaq oyunlarının canını təşkil edir. Elə bir oyun göstərmək olmaz ki, orada uşaqlar öz "aktyorluq" məharətlərini nümayiş etdirməsinlər. Uşaqlar oyunlarla praktik fəaliyyətə başlayır, sərbəstliyə öyrəşir, digər tərəfdən, bu fəaliyyət nəticəsində mənəvi və estetik zövq alır, əhatə olunduqları ətraf mühiti dərk etməyə çalışırlar. Bütün bunlar, son nəticədə, uşaqların həm fiziki, həm də mənəvi inkişafına kömək edir, onların şəxsiyyətini formalaşdırır. Nəhayət, oyunlara uşaqlar şüurlu surətdə yanaşırlar. Belə ki, oyunu ifa edən hər kəsin qarşısında müəyyən məqsəd durur və həmin məqsədə çatmaq üçün hansı yolla getməyi, hansı üsuldan, vasitədən istifadə etməyi şüurlu olaraq uşaqlar özləri seçirlər. Uşaq üçün hər oyun gərəklidir, başqa sözlə, o oynayarkən yaşayır. Oynayarkən həm uşağın qəlbi genişlənir, həm də boya-başa çatır".

*Məqaləmizin sonunda demək istərdik ki, uşaq oyunları folklorumuzun, xüsusilə uşaq folklorumuzun zəngin bir sahəsidir və oyunların keçmişdən bu günə kimi gələn nümunələrini qorumaq, öyrənmək və öyrətmək həm biz tədqiqatçıların, həm də hər bir vətəndaşın şifahi xalq ədəbiyyatı kimi milli və mənəvi varlığımız qarşısında borcu olmalıdır. Həmçinin var olan oyunlarla birlikdə, mütəmadi olaraq yeni oyunlar da meydana gəlir ki, onlar bu gün üçün yeni olsa da, 100-150 il sonra bu günün folklor nümunəsi kimi toplanılacaq, öyrəniləcək. Ona görə də oyunların tədqiqi və təbliğinə ənənəvi metodlar və elmi nəticələr prizmasından yanaşmaqla, həm də yeni üsullarla öyrənmək və təbliğ etmək lazımdır və buna böyük ehtiyac vardır.*

**Elxan YURDOĞLU**
***AMEA Naxçıvan Bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun Folklorşünaslıq şöbəsinin müdiri***

## Qadınların əl işlərindən ibarət sərgi-satış təşkil olunub

*Sədərək rayonunda Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin və Sədərək Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə rayonun istedadlı qadınlarının əl işlərindən ibarət sərgi-satış keçirilib.*



Sərginin açılışında Sədərək Rayon İcra Hakimiyyətinin başçısı Həbib İbrahimov çıxış edərək bildirib ki, Naxçıvan Muxtar Respublikasında qadınların əməyinin qiymətləndirilməsi daim diqqət mərkəzindədir. Göstərilən qayğının nəticəsidir ki, rayon üzrə təhsil, səhiyyə və mədəniyyət müəssisələrində çalışan qadınlar çoxluq təşkil edir. Rayondakı qadınlardan 10-u Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının müxtəlif dövlət mükafatlarına layiq görülüb. Artıq bir neçə ildir ki, istedadlı qadınların əl işlərinin sərgi-satışı təşkil edilir. Sədərək rayonunda keçirilən sərgidə də bütün yaşayış məntəqələrindən istedadlı qadınlar iştirak edirlər. Tədbirin təşkilində məqsəd rayon üzrə qadınların istedad və bacarıqlarını üzə çıxarmaq, milli dəyərlərimizi qorumaq, adət-ənənələrimizi gənclərə aşılamaq, mənəvi irsimizi yaşatmaqdır. İcra başçısı milli dəyərlərimizin yaşadılmasında qadınlarımıza uğurlar arzulayıb.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova çıxış edib. O bildirib ki, bu gün ölkəmizin hərtərəfli inkişafı, mövcud sabitlik, dövlət qadın siyasətinin uğurla həyata keçirilməsi, ailə dəyərlərinə yüksək qiymət verilməsi qadınların ictimai həyatda fəal iştirakına və istedadlarının üzə çıxarılmasına imkan verir. Naxçıvan Muxtar Respublikasında da qadınların bütün sahələrdə fəaliyyəti təmin olunur, min illər ərzində formalaşan milli dəyərlərimiz yaşadılır. Yaradılan şəraitin nəticəsində muxtar respublikada istedadlı qadınların sayı ildən-ilə artır.

Qeyd olunub ki, bu gün Sədərək rayonunda yaşayan istedadlı qadınların rəsm və əl işlərindən ibarət sərgi-satışın təşkili də mənəvi irsimizin yaşadılmasına xidmət edir. Muxtar respublikamızın hər yerində olduğu kimi, Sədərək rayonunda da hər bir qadının, o cümlədən istedadlı qadınların məşğulluğu təmin edilir, onların rifah halının yüksəldilməsi üçün əl işlərinin sərgi-satışı təşkil olunur. Ramilə Seyidova vurğulayıb ki, cari ildə muxtar respublikanın bütün rayon mərkəzlərində bu səpkidə sərgilərin keçirilməsi dövlət qayğısının nümunəsidir.

İstedadlı qadınlardan Samirə Əliyeva çıxış edərək bildirib ki, muxtar respublikada həyata keçirilən quruculuq tədbirləri sayəsində ən ucqar sərhəd kəndlərimizdə də qadınların iş və məişət şəraiti yaxşılaşdırılıb. O, göstərilən diqqət və qayğıya görə muxtar respublika rəhbərinə minnətdarlığını bildirib.

Sonra sərgi-satışa baxış olub. Sərgidə rayon üzrə 40 istedadlı qadının hazırladığı milli geyimlər, toxuculuq və bir-birindən maraqlı dekorativ-tətbiqi sənət nümunələrindən ibarət 203 rəsm və əl işlərinin nümayişi və satışı təşkil edilib.

**Sərxan İSMAYILOV**

## Məzunlara diplomlar təqdim edilib



***Naxçıvan Dövlət Texniki Kollecini bitirən məzunlara diplomların təqdimat mərasimi keçirilib.***

Tədbirdə Naxçıvan Dövlət Texniki Kollecinin direktoru Asəf Ruşanov və Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin əməkdaşı Seymur Xudanov çıxış edərək məzunları təbrik edib, onlara gələcək fəaliyyətlərində uğurlar arzulayıblar.

Bildirilib ki, muxtar respublikada təhsil quruculuğu sahəsində həyata keçirilən tədbirlər orta ixtisas məktəblərini də əhatə edib, bu təhsil ocaqlarının maddi-texniki bazaları gücləndirilib. Naxçıvan Dövlət Texniki Kolleci üçün yeni kompleksin istifadəyə verilməsi də bu sahədə aparılan işlərin davamıdır.

Vurğulanıb ki, ixtisaslı kadrların yetişdirilməsində Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi haqqında" 2015-ci il 27 iyul tarixli Sərəncamının böyük rolu var. Həmin sərəncama əsasən kollecin tələbələri nəzəri biliklərini müəyyən müəssisələrdə təcrübədə sınayıblar ki, bu da onlarda qazandıqları biliyin əyani şəkildə möhkəmlənməsinə gətirib çıxarıb.

Diqqətə çatdırılıb ki, 2017-ci ildə Naxçıvan Dövlət Texniki Kollecinin 6 ixtisas üzrə, ümumilikdə, 120 məzunu olub. Onlardan 8-i kolleci fərqlənmə diplomu ilə başa vurub.

Məzunlardan Nargül Abbaszadə, Aytac İbrahimli, Aylin Ələkbərova və Songül Səfərova çıxış edərək yaradılan hərtərəfli təhsil şəraitinə görə minnətdarlıq ediblər.

Sonra kolleci bitirən məzunlara diplomlar təqdim olunub.

**✍ Nail ƏSGƏROV**

Replika

# Sehrbaz

***Uşaqlıq illərindən sehrbazlara böyük marağım olub. Yaxşı yadımdadır, hər dəfə yeni il tətilində televizorda sehrbazların bir-birindən maraqlı gözbağlıcalarını göstərirdilər. Onlardan biri şapkasından dovşan çıxarır, digəri şarı iynə ilə deşərək o biri tərəfindən çıxarır, bir başqası isə əlcəyindən göyərçin uçururdu. O illərdə mən sehrbazların bunları necə etdiklərini bilməsəm də, dovşanın o şapkada yaşadığına özümü inandırmağa çalışırdım. Yoxsa başqa cür necə ola bilərdi ki?***




O illərin üstündən çox sular axıb, indi onlardan da əcaib-qəraib işlər görən sehrbazlar var. Arabir yenə onları televiziya ekranlarında görürəm. Ancaq indi, açığını deyim ki, bütün bunlara o qədər də inanmıram. Elə televizora baxıb “Ay səni kələkbaz!” – deyə bu sehrbazların ünvanına deyinəndə də düşünmüşəm ki, kaş yenə uşaq olaydım və bütün bunlara inanaydım. Neyləmək olar, illəri geri qaytarmaq mümkün deyil, indi bizə bu sehrbazlara baxıb, yalnız xəfifcə gülümsəmək qalır.

Ancaq ötən günlərdə qarşılaşdığım bir hadisə məni yenidən bu sehrbazlara inanmağa məcbur etdi. Özü də bu sehrbazlığı televizorda yox, elə gözümün önündəcə etmişdilər və bu o qədər cəldliklə olmuşdu ki, bu işin necə başıma gəldiyini ayırd edə bilməmişdim.

Ötən həftənin şənbə günü anam məni ət almaq üçün bazara göndərəndə bilməmişdim ki, heç bir əziyyət çəkmədən sehrbazlıqla qarşılaşacağam. Xülasə, bazara çatıb birbaşa qəssabxanaya yollandım, oraya varid olarkən “ətin yaxşısı burda”, – deyə car çəkənlərə məhəl qoymayıb piştaxtalara göz gəzdirdim. Onlardan birinə yaxınlaşıb, əlimlə gözümə yaxşı dəyən bir tikəni qəssaba göstərdim və onu çəkməsini xahiş etdim. İnsafən, yaxşı seçim etmişdim və çox ehtimal ki, anam mənim ət almaq bacarığım ilə bağlı evdə xeyli yaxşı sözlər söyləyəcəkdi. Ancaq elə olmadı. Niyə olmadı, bu barədə bir az sonra...

Müharibədə qalib gəlmiş adam ədası ilə evə girib, ət olan zənbili masanın üstünə qoydum, təşəxxüslə, “Ana, bu dəfə ət deyil, qaymaq almışam”, – deyib öz otağıma keçdim. Bir azdan mətbəxə qayıdanda gördüm ki, anam bir balaca deyinməyə başlayıb. Səbəbini soruşanda dedi ki, bala, qəssab bazarda nə qədər yağ, piy varsa, zənbilə doldurub. “Ola bilməz, qəssabla o qədər mübarizə aparmışam, gözümü əlindən çəkməmişəm, bu, necə ola bilər ki?” – deyə xeyli pəjmürdə oldum. Yadıma yenə o uşaqlıq illərində tamaşasına durduğum əl cəldliyi olan sehrbazlar düşmüşdü. Görəsən, o qəssab bu lazımsız ət parçalarını nə zaman, hansı sehrli qüvvə ilə zənbilimə atmışdı?

Öz-özümə qərar verdim ki, gələn dəfə bu adamın necə hərəkət etdiyini saniyə-saniyə izləyəcəyəm. Nə isə, əti alanda baxdım ki, hər şey qaydasındadır, qəssab əti yavaşca tənəkə qaba sürüşdürəndə qeyri-ixtiyari əlimlə qabı özümə tərəf çəkib içinə baxdım. Demə, işin əsası burda imiş. Qəssab əvvəlcədən piy və sümükləri tənəkə qabın mənə tərəf olan, görünməyən hissəsinə yığmışdı. Yavaşca tənəkə qabı yerə boşaltdım, qəssaba “ay səni, kələkbaz”, – deyib əti də almadan bayıra çıxdım. Çox razı qalmışdım. Çünki sehrbazlardan birinin sirrini aça bilmişdim.

Hə, əziz oxucular, sizə də kim desə ki, bu dünyada sehr-filan var, inanmayın. Sadəcə, diqqətli olsanız, sizə sehr kimi görünən əməlin əsl mahiyyətini başa düşəcəksiniz.

✍ **Səbuhi HÜSEYNOV**

***Dispanserizasiya əhalinin sağlamlıq vəziyyətinin qorunmasında səmərəli bir üsul kimi hazırda bütün dünyada tətbiq edilir. Profilaktik tədbirlər düzgün həyata keçirildikdə xəstəliklərin vaxtında aşkar olunması, sağalması asanlaşır, ağırlaşmaların qarşısı alınır, insanların əmək qabiliyyətləri qorunub saxlanılır, əlillik azalır. Bu məqsədlə müxtəlif yaş qruplarına, xüsusən risk qrupuna daxil olan əhali kütləvi profilaktik müayinələrə cəlb olunur.***

# Risk qrupuna daxil olan əhalinin dispanserizasiyası davam edir

Son illərdə insanlar arasında ürəyin işemiyası, hipertoniya, şəkərli diabet, onkoloji və digər xəstəliklərin yaranması artdığından onlar arasında profilaktik müayinə tədbirlərinin aparılması xüsusi əhəmiyyət kəsb edir. Qanda xolesterinin artması və siqaretçəkmə, yüksək arterial təzyiq, şəkərli diabet, oturaq həyat tərzi, adinamiya, qeyri-düzgün qidalanma, kəskin və xroniki streslərə məruzqalma halları damarların zədələnməsinə, ateroskleroz prosesinin inkişafına səbəb olur. Nəticədə, miokard infarktı, stenokardiya, insult, aşağı ətrafın qanqrenası kimi ağır xəstəliklər yaranır. Belə xəstəliklərin qarşısını vaxtında almaq məqsədilə Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin tədbirlər planına uyğun olaraq bu il mayın 1-dən 56-60, 100 və yuxarı yaşlı əhalinin, həmçinin Azərbaycanın müdafiəsi uğrunda əlil olan vətəndaşların kütləvi müayinə tədbirləri, dispanserizasiyası aparılır.

Müayinələr Akademik Zərifə Əliyeva adına Naxçıvan Şəhər Poliklinikasında və rayon mərkəzi xəstəxanalarında tərtib edilmiş iş qrafiki əsasında terapevt, cərrah, ginekoloq, stomatoloq, oftalmoloqlar tərəfindən həyata keçirilir. Ehtiyac olan hallarda xəstələrə yüksəkixtisaslı həkimlərin, o cümlədən nevropatoloq, psixiatr, endokrinoloq, uroloq, ftiziatr, kardioloq və başqalarının konsultasiyası və laborator-diaqnostik müayinələr təşkil edilir. Müayinə olunanlarda qanda xolesterinin təyin edilməsi üçün mərkəzi rayon xəstəxanalarına və Naxçıvan Şəhər Poliklinikasına portativ cihazlar verilib və stript testi ilə təmin edilib.

Şahbuz rayonunda aparılan müayinələr öz mütəşəkkilliyi ilə diqqəti cəlb edir. Hazırda müayinələr zonalar üzrə aparılır. Artıq Şahbuz şəhərində, Kükü, Biçənək, Ağbulaq, Gömür, Türkeş və Badamlı kəndlərində yerləşən həkim ambulatoriyaları və feldşer-mama məntəqələri üzrə 56-60 yaşlı əhalinin 196 nəfəri müayinədən keçirilib, onların hər birində xolesterinin miqdarı müəyyən edilib və lazımi tibbi göstərişlər verilib. Müayinələr həftə ərzində Keçili və Külüs kəndlərində davam etdiriləcəkdir.

100 və yuxarı yaşlı əhalidən Kolanı kəndində 1911-ci il təvəllüdlü Səyyad İmamquliyeva, Külüs kəndində 1912-ci il təvəllüdlü Küsün Quliyeva, Şahbuz şəhərində 1909-cu il təvəllüdlü Ceyran Qafarova həkimlərin şəfqəti ilə əhatə olunublar. Rayonda Azərbaycanın müdafiəsi uğrunda əlil olan 21 nəfər qeydiyyatdadır. Onların 14 nəfəri profilaktik tibbi müayinədən keçirilib.

Bütövlükdə, 56-60 yaşlı əhalinin muxtar respublika üzrə qeydiyyatda olan 9 min 726 nəfərindən iyul ayı ərzində 3 min 554 nəfəri tibbi müayinədən keçirilib, onların 731 nəfərində xolesterin müayinəsi aparılıb, 397 nəfər qeydiyyata alınıb.

16 nəfər 100 və yuxarı yaşlı vətəndaşın siyahısı hazırlanaraq profilaktik tibbi müayinələrə cəlb edilib. Azərbaycanın müdafiəsi uğrunda əlil olan 351 nəfərdən 311-i dispanserizasiyadan keçirilib.

Risk qrupuna daxil olan əhalinin kütləvi müayinələrinin noyabr ayına kimi başa çatdırılması nəzərdə tutulub.

**Hüseyn ƏSGƏROV**

# Uşaq-gənclər idman məktəblərində iş necə qurulub?

***İdmanın inkişafında, təbliğində, geniş yayılmasında idman məktəblərinin rolu danılmazdır. Uşaqların bu sahəyə cəlbində, onlara sağlam həyat tərzi aşılamaqda uşaq-gənclər idman məktəblərinin üzərinə mühüm vəzifələr düşür. Ümumiyyətlə, belə idman məktəbləri məktəbdənkənar, sosialyönümlü müəssisədir. Onlar öz fəaliyyətlərini uşaq, yeniyetmə və gənclərin ahəngdar inkişafına, bədən tərbiyəsi və idman vasitəsilə sağlamlığının və fiziki hazırlığının möhkəmləndirilməsinə yönəldirlər.***





Uşaq-gənclər idman məktəbləri tabeçiliyində olduqları təşkilatlar tərəfindən onlara həvalə edilmiş idman növlərini, məktəbin maddi-texniki bazasını, maliyyə vəsaitini nəzərə alaraq fəaliyyət proqramı hazırlayır və kollektivlərin pedaqoji şuralarında təsdiq edirlər. Onların qrupları ümumtəhsil, texniki peşə, orta ixtisas və ali təhsil müəssisələrinin şagird və tələbələrindən, gənclər və hərbi qulluqçulardan komplektləşdirilir.

Qanuna uyğun olaraq Azərbaycan Respublikasında bu məktəblərin açılması bəzi şərtlərlə həyata keçirilir: təlim-məşq prosesinin təşkili üçün özünün və yaxud icarəyə götürülmüş idman bazasının olması, bir idman növü üzrə minimum 14 qrupun fəaliyyətini təmin etməsi, açılması nəzərdə tutulmuş idman növü üzrə ixtisaslı məşqçi-müəllim kadrlarının olması və sair.

Bu gün dövlət başçısı tərəfindən ölkəmizdə idmanın inkişafı istiqamətində həyata keçirilən işlər Azərbaycan idmanının dünyadakı nüfuzunu xeyli artırıb. Bu inkişaf və nüfuz idmançılarımızın beynəlxalq yarışlarda əldə etdiyi uğurların və ölkəmizdə keçirilən beynəlxalq turnirlərin sayında öz əksini tapır.

Muxtar respublikada da idmana göstərilən diqqət və qayğı son illərdə xeyli artıb. Hazırda regionda yüzlərlə idman obyekti fəaliyyət göstərir ki, həmin obyektlərdən 40 mindən çox vətəndaş istifadə edir. Yaradılan şəraitin nəticəsidir ki, son illər idmançılarımız respublika və beynəlxalq səviyyəli yarışlarda böyük uğurlar əldə ediblər.

Bu gün muxtar respublikanın təhsil sistemində 8 uşaq-gənclər idman və 8 şahmat məktəbi fəaliyyət göstərir. Bu məktəblərdə idmanın sirlərinə yiyələnən gənc nəsil fiziki-mənəvi baxımdan sağlam yetişir. Uşaqların müxtəlif səpkili uşaq-gənclər idman məktəblərinə yazılması, orada idmanın sirlərinə yiyələnməsi onların hərtərəfli inkişafı ilə yanaşı, zərərli vərdişlərdən uzaqlaşmasına imkan yaradır. Təhsil müəssisələrində idmanın müxtəlif növləri üzrə spartakiadalar, birinciliklər, dövlət əhəmiyyətli bayramlara həsr olunmuş tədbirlər və xatirə turnirləri keçirilir. Bu yarışların tələbə və şagirdlərin idmana marağının artırılmasında böyük rolu var.

Bəs uşaq-gənclər idman məktəblərimiz öz işlərini hansı istiqamətdə qurublar? İlk olaraq bu sualı Naxçıvan şəhər Uşaq-gənclər idman məktəbinin direktoru Məmmədcəfər Əliyevə ünvanladıq. Müsahibimiz bildirdi ki, burada 5 idman növü üzrə 650-yə yaxın yeniyetmə və gənc 18 məşqçi-müəllimin rəhbərliyi altında idmanla məşğul olur. Uşaqlar 9 yaşından məşqlərə cəlb edilirlər. Bütün işlər isə Təhsil Nazirliyinin tədbirlər planına uyğun olaraq həyata keçirilir.

Məsələyə Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mövqeyini də öyrəndik. Nazirliyin əməkdaşı Mahir Əliyev bildirdi ki, metodik tövsiyələr və tədris proqramlarının hazırlanması Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən həyata keçirilir və buna uyğun olaraq proqram tərtib edilir. Hər rübdə bir dəfə məktəblərdə seminarlar təşkil olunur, görülən işlər müzakirə edilir və çatışmazlıqlar aradan qaldırılır.

İdman məktəblərində idman növləri üzrə məşqçilər şurası yaradılır. Şurada məşqçi-müəllimlərin rəhbərliyi altında ayda bir dəfədən az olmayaraq, təlim-məşq və tərbiyə işlərinə, idmançıların hazırlanmasının fərdi planlaşdırılmasına, onların yarışlarda iştirakı məsələlərinə baxılır. Məşqçi-müəllimlərin məşq prosesinin təkmilləşməsi üzrə təlimat və məruzələri dinlənilir, açıq məşqlər keçirilir, müzakirə olunur və təcrübə mübadiləsi aparılır.

Bəs muxtar respublikada Təhsil Nazirliyi bu yöndə hansı işləri görür? Mahir Əliyevin cavabı belə oldu: “Ümumiyyətlə, nazirlik hər il sentyabr ayında ümumi yığıncaq təşkil edir və idman məktəblərinin fəaliyyəti yönündə görülən işlər, qazanılan uğurlar barədə müzakirələr aparılır. Cari il yanvarın 14-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində “Naxçıvan Muxtar Respublikasında bədən tərbiyəsi və idmanın hazırkı vəziyyəti və qarşıda duran vəzifələr”ə həsr olunmuş müşavirədən sonra Təhsil Nazirliyində kollegiya yığıncağı keçirilib və tapşırıqlar verilib, tədbirlər planı hazırlanıb. Bu ili əhatə edən planda əsas məqsəd tam orta məktəblərdə idmanın inkişafına müsbət təsir göstərəcək işlər görmək və şagirdləri idmana cəlb etməkdir. İdman məktəblərinə gəlincə, onlar, öz növbəsində, tabeçiliyində olduqları təşkilatlar tərəfindən həvalə edilmiş idman növlərini, məktəblərin maddi-texniki bazasını, fəaliyyət proqramını hazırlayır və təqdim edirlər. Digər tərəfdən, tabeçiliyimizdə olan idman məktəblərində məşqlərin keçirilməsi üçün bəzi tam orta məktəblərin idman zalları onların ixtiyarına verilib”.

*Bu gün muxtar respublikada uşaq və gənclər arasında idmanı daha da inkişaf etdirmək üçün bütün problemlər aradan qaldırılıb, yeni idman binaları, idman meydançaları tikilib istifadəyə verilib, onların inventar və avadanlıqlarla təchizatı yaxşılaşdırılıb. Bu məsələlərin həlli isə gənc nəslin fiziki-mənəvi inkişafında mühüm rol oynayır.*

✍ **Ceyhun MƏMMƏDOV**

### İtmişdir

Mirzəyeva Jalə Elşad qızının adına olan Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi itdiyindən etibarsız sayılır.

* * *

Ələkbərov Bəhruz Məmməd oğlunun adına olan sürücülük vəsiqəsi itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Əli Cabbarov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 651